## *Nizami Xudiyev - 70*

# TANIDIĞIM NİZAMİ XUDİYEV



*İsmayıl MSSMMSSDLİ,*
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*“Tətbiqi dilçilik” şöbəsinin müdiri,*
*filologiya elmləri doktoru, professor.*

Hər bir alim, yaradıcı insan haqqında söhbət düşdükdə, ilk növbədə onun əsərləri, elmi irsi göz önündə canlanır. Bu mənada Azərbaycanın filologiya elmində öz dəst-xətti ilə seçilən alimlərimiz az deyil. Belə alimlərdən biri də türkoloji ictimaiyyətin yaxşı tanıdığı professor Nizami Xudiyevdir.

Filologiya elmləri doktoru, əməkdar elm xadimi, professor Nizami Mənaf oğlu Xudiyev müasir Azərbaycan dilçiliyini öz araşdırmaları, monoqrafiya və dərslikləri ilə zənginləşdirən alimlərimizdəndir. Vətəndaşlıq mövqeyi, təşkilatçılıq bacarığı ilə diqqəti cəlb edən ziyalılarımızın ön cərgəsində addımlayan N.Xudiyevin elmi tədqiqatları daha çox bədii dil, Azərbaycan ədəbi dilinin tarixi, leksikologiyası, söz yaradıcılığı, türkoloji dilçilik, eləcə də linqvistik tərcüməşünaslıq, üslubiyyat və poetika məsələləri, qədim türk abidələrinin dili, nitq mədəniyyəti, terminologiya, ana dilimizin tədrisi metodikası kimi aktual sahələri əhatə edir. 40-dan çox monoqrafiya, seçilmiş əsərlərinin çoxcildliyi, dərslik, dərs vəsaiti və proqramlar, elmi-metodiki, praktik vəsaitlər və lüğətlər N.Xudiyev qələminin məhsuludur. “Azərbaycan ədəbi dili tarixi”, “Azərbaycan ədəbi dilinin sovet dövrü”, “Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı”, “Azərbaycan ədəbi dilinin zənginləşmə yolları”, “Yazıçı dili və üslubu”, “Azərbaycan ədəbi dilinin təşəkkülü”, “Tərcümə ədəbiyyatı və ədəbi dilimiz”, “Televiziya və radio dili” və başqa elmi əsərləri onun elmi yaradıcılığının heç də tam olmayan siyahısıdır.

Prof. Nizami Xudiyev müasir dilçiliyimizdə öz sözü, mövqeyi olan tədqiqatçılardandır. Bununla yanaşı, o, hər dəfə söhbət düşdükdə qazandığı uğurlara görə mərhum akademiklər - M. Şirəliyevi, Ə.Dəmirçizadəni, akademiyanın müxbir üzvləri, professor A.Qurbanovu, Zərifə Budaqovu və başqa alimləri minnətdarlıqla xatırlayır. N.Xudiyevin araşdırmalarında dilimizin leksikası, dilçiliyimizin leksikologiya və söz yaradıcılığı, nitq mədəniyyəti sahələri xüsusi yer tutur.

Professor Nizami Xudiyev öz tədqiqatlarında ilk növbədə müaciət etdiyi mövzunun elmi-nəzəri əhəmiyyətini, aktuallığını, gərəkliliyini dərindən əsaslandırır və bu sahədə gələcəkdə araşdırmalar aparılması üçün istiqamətləri müəyyənləşdirir. Misal çəkdiyimiz mülahizələr fikrimizə əyani sübut ola bilər: “Lüğət tərkibinin inkişafı mahiyyət etibarı ilə mürəkkəb hadisədir. Burada həm ədəbi dilin struktur-funksional təkamülü, həm də ictimai idrakın tərəqqisi ehtiva olunur. Odur ki, lüğət tərkibi eyni zamanda həm linqvistik, həm də fəlsəfi-psixoloji məzmunda dərk edilir. Leksik-semantik inkişafın linqvistik planı ilə fəlsəfi-psixoloji planı ictimai təfəkkür ümumiliyində birləşir; lüğət tərkibinin inkişafını universal kontekstdə araşdırmağın metodoloji əsasları işlənib hazırlanmadığı üçün müəyyən differensial keyfiyyətlərin uyğun təsvirini vermək bir sıra hallarda mümkün deyil”.

N.Xudiyev əsərlərində özündən əvvəllər söylənmiş fikirlərə diqqətlə yanaşmaqla bərabər, bu sahədə onu narahat edən məsələləri də ön plana çəkir, ovyektivlik mövqeyindən mülahizələrini bildirir. Razılaşmadığı fikirləri isə alimlik etikası, tənqid mədəniyyəti ilə açıb göstərir. Əgər, o, ədəbi dil tarixindən bəhs edirsə, burada dövrləşdirmə haqqında bütün bölgüləri, təsnifatı verir, eyni zamanda özü də alternativ təsnifat təklif edir. Əgər söz yaradıcılığı məsələlərindən danışırsa, bu zaman zənginləşmədəki üsul və vasitələri sadalayır, həmçinin bunların hər birinin hansı dövrə, zamana uyğun olduğunu göstərir. Bütövlükdə tədqiqatçı üçün zəruri olan bütün şərt və elmi keyfiyyətlər alimin əsərlərində aydın əks olunub.

Hamıya aydındır ki, Azərbaycanın müstəqilliyi, respublikada demokratiya prinsiplərinin bərqərar olması, dilimizin həqiqi mənada dövlət dili funksiyası daşıması, nəhayət, milli özünüdərk prosesinin güclənməsi və inkişaf etməsi ədəbi dilimizi xəlqi prinsiplər əsasında yeni normalaşma prosesinə daxil edib. Bütün bunlar isə dilimizin tədqiqinə daha diqqətlə yanaşmağı tələb edir. Azərbaycan dilinə dövlət səviyyəsində qayğı və himayə göstərilməsi dilçilər qarşısında mühüm və təxirəsalınmaz vəzifələr qoyur. Ulu öndərimizin də Azərbaycan dilinə böyük məhəbbət və qayğı ilə yanaşaması minillik tarixi olan dilimizin bu gün ən aktual problemlərini bizə diqtə edir: “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm” (Heydər Əliyev). Təsadüfi deyil ki, professor Nizami Xudiyev “Heydər Əliyev və Azərbaycan dili” (“Təhsil” nəşriyyatı, 1997. Redaktoru prof. Ağamusa Axundov) monoqrafiyasına Heydər Əliyevin söylədiyi bu cümlələri epiqraf seçmişdir. Kitabın elmi və ictimai dəyəri orasındadır ki, müəllif ilk dəfə olaraq həmin monoqrafiyada böyük ictimai-siyasi xadim və dövlət başçısı ulu öndərin ana dili barədə sistemli mülahizələrini, nitq mədəniyyəti və natiqlik məharətini zəngin faktlar əsasında təhlil və tədqiq etmişdir.

Nizami Xudiyevin “Heydər Əliyev və Azərbaycan dili” monoqrafiyasından sonra Mübariz Yusifovun “Dahi şəxsiyyətin nitq fenomenliyi” və Nəsimi adına Dilçilik İnstitutunda hazırlanmış “Heydər Əliyev dil haqqında” və “Heydər Əliyevin dili” kitabları həm də dövlət başçımızın ana dili məsələlərinə doğma münasibətini aşkarlamaqla, həm nitq mədəniyyəti işinin ümumxalq, dövlət səviyyəsində qiymətləndirilməsində, həm də Heydər Əliyevin əsərlərinin, çıxış və nitqlərinin dili və üslubunun tədqiqində dəyərli təşəbbüslər kimi qiymətlidir.

N.Xudiyevin bir çox elmi əsərləri tətbiqi-əməli xarakter daşıyır. Onun ədəbi dilimizin tarixinə dair seminar-məşğələlərinə, nitq mədəniyyətinə, orfoqrafiyaya, terminologiya və durğu işarələrinə həsr olunmuş əsərlərini bunlara nümunə gətirmək olar. Professor N.Xudiyev “Azərbaycan dilinin orfoqrafiya lüğəti”nin təkmilləşdirilməsində də böyük zəhmət çəkmişdir. bütün bunların respublikamızda dil quruculuğu sahəsində və xüsusən də tətbiqi dilçilikdə mühüm əhəmiyyəti vardır.

N.Xudiyevin elmi əsərlərinə, monoqrafiya və kitablarına yazılmış resenziya və rəylərdə onun elmi yaradıcılığı layiqli qiymətini almışdır. N.Xudiyev Vətənimizdən uzaqlarda da yaxşı tanınır. O, dəfələrlə Türkiyə, İran kimi Şərq ölkələrində, beynəlxalq elmi konfranslarda məruzələr etmişdir. Onun “Azərbaycan ədəbi dili tarixi” kitabı Türkiyə və İranda (latın və ərəb qrafikası ilə) nəşr edilmişdir. N.Xudiyev həmçinin elmi kadrların hazırlanmasına da rəhbərlik edir, respublika doktorluq üzrə birləşmiş müdafiə şurasının üzvüdür. N.Xudiyev müəyyən vaxtlarda ADPU-nun rektoru, Azərbaycan Televiziya və Radio verilişləri Şirkətinin Sədri kimi də ali vəzifələri də yerinə yetirmişdir. Hazırda ADPU-da kafedra müdiridir. Bütün bunlarla yanaşı, o, həm də Milli Məclisin üzvü də seçilmiş, əhəmiyyətli məsələlərin həllində yaxından iştirak etmiş ictimai xadimdir.

Professor Nizami Xudiyevin bu günlərdə 70 yaşı tamam olur. Bununla əlaqədar ona birinci növbədə cansağlığı, bizi yeni-yeni elmi əsərləri ilə sevindirməyi arzulayırıq. Nizami Xudiyevi yubileyi münasibətilə təbrik edir, ona elmi, ictimai fəaliyyətində uğurlar diləyirik.

***2019***






